# MÜASİR İQTİSADİYYATIN İNKİŞAFINDA XÜSUSİYYƏTLƏR VƏ STRATEJİ PROBLEMLƏR

**Həsənov Hüseyn Kamal oğlu**- i.e.n., dosent, Sənayenin təşkili və idarə edilməsi kafedrası, AzMİU, huseynhasanov@mail.ru

**Annotasiya.** Azərbaycanın müasir inkişaf mərhələləri ilk növbədə bazar iqtisadiyyatı şərtlərinin bərqərar olması ilə bağlıdır. keçən dövr göstərir ki, bazar iqtisadiyyatı ölkəyə etibarlı və uğurlu müvəffəqiyyətlər gətirə bilər. Digər tərəfdən iqtisadiyyatın inkişafının spesifik xüsusiyyətlərinə aid edilən şərtlərin nəticəsində, sosial vəzifələrin həll edilməsi və məhsulun rəqabətqabiliyyətinin yüksəldilməsi problemlərini həll etmək mümkündür. Bu problemlərin həlli üçün lazım olan yeni texnika və texnologiyanı almaöa müəyyən həcmdə investisiyalar da lazımdır ki, onlar olmadan bu və ya digər strateji problemləri həll etmək çox çətindir. Ölkə iqtisadiyyatında inkişafa nail olamaqxüsusiyyətləri nəzərə alaraq taktiki və strateji problemləri aradan qaldırmaq yolunda, imkan olduqca fəaliyyət sferasını çeviklik və qabiliyyətlə idarə etmək, həmçinin müsbət proseslərin sürətləndirilməsinə çalışaraq imkanları daha operativ səfərbər etmək lazımdır. Azərbaycanda bu yolla getməkdədir. Məqalədə toxunulan məsələlərin dairəsi xeyli genişdir. Xüsusilə, inkişafın prinsipləri, qloballaşma prosesindən yaranan yeni vəziyyət, iqtisadi qaydalar, iqtisadi inkişafa çatmaq və proseslərin davamlılığı üçün amillər geniş və ətraflı araşdırılmış, son 30-20 ildə keçilən təcrübə nəzərdən keçiriləcək, təkliflər verilmiş və nəticələr çıxarılmışdır.
**Açar sözlər:** rəqabət qabiliyyətlilik, bazar prinsipləri, iqtisadi sistem, qloballaşma, istehsal, idarəetmə, inkişaf, islahat

# FEATURES AND STRATEGIC PROBLEMS IN THE DEVELOPMENT OF MODERN ECONOMY

**Hasanov Huseyn Kamal**- PhD, ass.prof., department of Organization and management of industry, AzUAC, huseynhasanov@mail.ru

**Annotation.** Modern stages of Azerbaijan's development are primarily related to the establishment of market economy conditions. The past shows that the market economy can bring reliable and successful success to the country. On the other hand, it is possible to solve social problems and increase the competitiveness of products as a result of conditions related to specific features of economic development. Investing in new techniques and technology needed to solve these problems also requires a certain amount of investment, which is difficult without these or other strategic problems. It is necessary to mobilize opportunities more efficiently by managing agility and capability, as well as accelerating positive processes, to address the tactical and strategic problems, taking into account the specifics of the country's economic development. This is the way in Azerbaijan. The issues covered in this article are quite broad. In particular, the principles of development, the new situation arising from the process of globalization, economic rules, factors for achieving economic development and sustainability are widely and thoroughly reviewed, the experience of the last 30-20 years, recommendations and conclusions are made.
**Keywords:** competitiveness, market principles, economic system, globalization, production, management, development, reform

Azad iqtisadiyyatın həyata keçirilməsində ilkin prinsiplər olan makroiqtisadisabitlik , islahatlar ,liberallaşdırma ,inteqrasiya ,demokratikləşmə ardıcıl şəkildə həyata keçirilməklə ölkə iqtisadiyyatının formalaşması və inkişafına təkan verir. Azad iqtisadiyyatın formalaşması onun bəlli prinsiplərlə əlaqələndirilməsindən ibarətdir ki, bunlara da aşağıdakıları aid etmək olar:
- inhisarlaşdırmanın gücləndirilməsi;
- rəqabət qabiliyyətliliyinin yüksəldilməsi;

- iqtisadi təhlükəsizliyin təmin edilməsi;
- makroiqtisadi tənzimləmənin həyata keçirilməsi;
- insan potensialının inkişafına yönəldilən sosial siyasətin həyata keçirilməsi istiqamətinin düzgün müəyyənləşdirilməsi;
- struktur böhranlarını yaradan iqtisadi – sosial şərtlərin aradan qaldırılması;
- ÜDM – in iqtisadi artım sürətinin saxlanması və.s

Müasir dünyada gedən qloballaşma prosesi və ondan irəli gələn iqtisadi dəyişikliklər hər bir ölkənin milli iqtisadiyyatının inkişafına fərqli şəkildə təsir göstərir. Bu bir tərəfdən ölkənin malik olduğu təbii və iqtisadi resurslara malik olması səviyyəsindən, ondan istifadə olunması və idarə edilməsi sisteminin aparılmasından, milli – mənəvi dəyərlərə üstünlük verilməsindən və digər amillərdən asılıdırsa, həm də həyata keçirilən iqtisadi siyasətin yeni səviyyəli tələbatlara uyğunlaşdırılmasından asılıdır [1]. Bazar sisteminin prinsiplərinə əsaslanan tələbatların sintezləşdirilməsi prosesinin həyata keçirilməsi ölkənin iqtisadi inkişaf modelinin fərqləndirici xüsusiyyəti kimi əks olunur. Azad bazar sistemli ölkələrdə bu prosesin sürətlə həyata keçirilməsi həm ölkə iqtisadiyyatının formalaşması və inkişafına səbəb olur, həm də iqtisadi inteqrasiyanı sürətləndirir. Belə bir proses isə Azərbaycan iqtisadiyyatının inkişafının müasir mərhələsi üçün xarakterikdir. Məlumdur ki, hər hansı bir iqtisadi sistemdə iqtisadi inkişafa nail olmaq üçün bir sıra amillərin mövcudluğu şərtdir :
- təbii və coğrafi məkan;
- müxtəlif məhsuldarlıqlı torpaqlar;
- mənəvi, mədəni, siyasi və iqtisadi dəyərlər;
- bu və ya digər sahəyə üstünlük verilməsi;
- iqtisadi sistemin xarakteri;
- fəaliyyət şəraitinin müxtəlifliyi;
- iqtisadi inkişaf mərhələlərinin müxtəlifliyi;
- fərdi təsərrüfat, ev təsərrüfatı və şəhər təsərrüfatında maddi– texniki qaydaların müxtəlifliyi və.s

Qeyd etmək lazımdır ki, iqtisadi qaydalarda siyasi qaydaların uyğunluğu ölkə iqtisadiyyatının inkişafına öz təsirini göstərir. İqtisadi qaydaların tarixən aşağıdakı üç forması müvcuddur :
- mərkəzdən idarə edilən iqtisadi qaydalar [1-2];
- sərbəst bazar tipinə xas olan iqtisadi qaydalar ;
- rəqabətli bazar strukturuna xas olan iqtisadi qaydalar .

Siyasi qaydaların da dövlət timsalında əsasən üç firması vardır :
- demokratik prinsiplərə əsaslanan siyasi qaydalar ;
- avtoritarizm və yaxud tək hakimiyyətliliyə əsaslanan siyasi qaydalar ;
- totalitarizm prinsiplərinə əsaslanan siyasi qaydalar .

Siyasi qaydaların hakimiyyət strukturu vasitəsi ilə cəmiyyət arasındakı münasibəti, iqtisadi fəaliyyətdə məqsədlərə nail olmağın istiqamətini müəyyən edir və bununla da ölkə iqtisadiyyatının inkişaf meylləri müəyyənləşir. Başqa sözlə, siyasi qaydalar çərçivəsində iqtisadi qaydaların tətbiqi, ölkədə iqtisadi fəallığın səviyyəsini, mənafe və maraqların ödənilməsi imkanını, təşəbbüskarlığı, stimullaşdırmanı, məcburiyyəti, məsuliyyəti və seçimetmə şəraitini müəyyənləşdirir. Müasir şəraitdə ölkə iqtisadiyyatının nəzəri əsasları və prinsiplərinə olan maraq bir sıra amillər səbəbindən xeyli artmışdır ki, bunlara da göstərilənləri aid etmək olar :
- müstəqil dövlətlərin əmələ gəlməsi ;
- yeni milli iqtisadi inkişaf modelinin seçilməsi ;
- milli iqtisadi təhlükəsizliyin təmin edilməsi ;
- milli mənafelərin reallaşdırılması hədlərinin qorunması ;
- qloballaşma prosesindən irəli gələn iqtisadi problemlərin həlli ;
- dünya və regional inteqrasiya çərçivəsində dövlətin öz funksional yerini qoruyub saxlaması və.s

Digər tərəfdən ideoloji qaydaların, xüsusən də cəmiyyət üzvlərinin dünya görüşünün formalaşması, ümumi mentalitet səviyyəsi, dini əqidənin mövcudluğu, adət və ənənələrə riayət olunması kimi amillərin təsiri nəzərə alındıqda ölkə iqtisadiyyatının formalaşması və inkişaf xüsusiyyətlərini daha aydın görmək olar. Müasir mərhələdə yuxarıda sadalanan amillərin ardıcıl və qarşılıqlı əlaqəli sürətdə həyata keçirilməsi həm islahatların sürətləndirilməsinə, həm də ölkə iqtisadiyyatının daha yetkin formalaşması və inkişafına şərait yaradır. Deməli, milli iqtisadiyyat müəyyən konkret tarixi şəraitdə mövcud iqtisadi potensialdan ölkə əhalisinin mənafelərinin reallaşmasını əks etdirən iqtisadi proses olmaqla reallaşdırılan iqtisadi sistemin xarakterindən asılı olaraq müəyyən qanunauyğunluqları, fərdi dəyişiklikləri və xüsusiyyətləri əks etdirir[3].

Beləliklə, əgər müasir dövr bazar sisteminin inkişafının müxtəlif modellərinin ümumi qanunauyğunluqlarından irəli gələn iqtisadi hadisələri özündə əks etdirirsə, milli iqtisadiyyat ayrı – ayrı dövlətlərin həyata keçirdikləri iqtisadi siyasətdən və iqtisadi inkişafın xüsusiyyətlərindən irəli gələn özünəməxsus qanunauyğunluqlardan asılı olaraq formalaşır. Həm də, ölkə iqtisadiyyatının inkişafında mikroiqtisadi fəaliyyətin özəllikləri xüsusi rol oynayır. Mikroiqtisadiyyatın əhatə dairəsi bilavasitə bazar prinsipləri hesab edilən xüsusi mülkiyyətlə, rəqabətlə, iqtisadiyyatın açıqlıq səviyyəsi və dövlətin iqtisadi tənzimləmələri ilə əlaqədar olduğu halda, makroiqtisasiyyat dövlətin yeritdiyi iqtisadi siyasətlə birbaşa bağlıdır. Göründüyü kimi müasir mərhələdə ölkə iqtisadiyyatının inkişaf səviyyəsi həm mikroiqtisadiyyat üçün, həm də makroiqtisadiyyat üçün xarakterik olan prinsiplər, şərtlər və amillərin qarşılıqlı əlaqələrindən asılıdır. Həmçinin mikro və makro səviyyəli idarəetmə sisteminin tətbiqi bilavasitə ölkə iqtisadiyyatının inkişafına təsir edə bilən amil kimi çıxış edir. Müasir mərhələdə ölkəmizin iqtisadiyyatının daha stabil formalaşması və davamlı inkişafı üçün fikrimizcə aşağıda qeyd edilənlərə xüsusi diqqət yetirilməsinə ehtiyac vardır [3]:

- dövlət və xüsusi mülkiyyət arasındakı mütənasibliyə ;
- institutsional sistemin qarşıya qoyduğu tələblərin səviyyəsinə ;
- iqtisadi resursların marjinallıq dərəcəsinə ;
- müəssisələrin ( firmaların ) və dövlətin taktiki və strateji məqsədlərinə ;
- fərdi və ictimai mənafelərin düzgün əlaqələndirilməsi ;
- mikro və makro səviyyəli idarəetmənin optimallıq səviyyəsinin qorunmasına ;

Eyni zamanda bazar iqtisadiyyatının vacib meyarı və müasir inkişafın xarakterik xüsusiyyətlərini əks etdirən :

- iqtisadiyyatın bütün sahələrində müasir bazar prinsiplərinin fəaliyyətinə nail olunması ;
- sahibkarlığın inkişafında dövlət tənzimləmə mexanizminin səmərəliliyinin yüksəldilməsi ;
- dünyada baş verən hadisələr zəminində maliyyə iqtisadi böhranlara məruz qalmaq ehtimalının minimum səviyyə endirilməsi ;
- enerji təhlükəsizliyinin təmin edilməsi və.s problemlərin həlli də daima nəzər – diqqətdə saxlanmalıdır.

Müasir mərhələnin öhdəsinə mühüm strateji əhəmiyyətli, taleyüklü, son dərəcə məsuliyyətli vəzifələr düşür desək, heç də səhv etmiş olmarıq. Bu vəzifələrin həlli müxtəlif amillərlə bağlı olsa da, ən çox respublikamızda gələcək inkişafın təməl prinsiplərini müəyyənləşdirən elmin qarşısında duran vacib vəzifələrdən hesab edilir. Bu gün Azərbaycan qüdrətli dövlətdir, onun iqtisadiyyatı, incəsənəti, mədəniyyəti dinamik inkişaf edir deyə bilmək üçün ölkəmizin gələcəyi məsuliyyətli qərarlar qəbul etməyə, milli mənafelərini qorumağa və zamanın çağırışlarına cavab verməyə qadir mütəxəssislərdən asılı olacaqdır. Qloballaşan və sürətlə dəyişən dünyanın reallıqları, ən yeni texnologiyaların sirlərini mənimsəməyi, onlardan çevik faydalanmağı olduqca aktual edir. Bunun nəticəsidir ki, prezident İ.Əliyev ölkə inkişafının daha məsuliyyətli bir dövrə qədəm qoyduğunu qeyd edərək, bu prosesdə elmin inkişafında danılmaz rola malik olduğunu xüsusi diqqətə çatdırmış və Azərbaycanda ümumən elmin, konkret desək iqtisad elminin zamanı qabaqlaya bilərək vəzifələrin öhdəsindən gəlməsini aktual bir vəzifə kimi qarşıya qoymuşdur [4].

Beləki, milli iqtisadi inkişafın modernləşdirilməsinin ana xətti strateji baxımdan işlənmiş olsa da, taktiki baxımdan dünyada gedən qloballaşma prosesi ilə bağlı daima təkmilləşdirilməli və inkişaf etdirilməlidir. Ölkədə iqtisadi inkişaf nəticə etibarı ilə ölkə vətəndaşlarına, şəxsiyyətin hüquq və

azadlıqlarının təmin edilməsinə, demokratiyanın inkişafına, liberallaşmanın sürətləndirilməsinə və iqtisadi modernləşdirilmənin mərhələli həllinə gətirib çıxarmalıdır. Başqa sözlə, ölkədə iqtisadi inkişafla bağlı qarşıda duran vəzifələr bu kontekslərdən çıxış edilərək həll olunmalıdır. Odur ki, müasir mərhələdə Azərbaycan iqtisadiyyatının inkişaf yolunu səhv etmədən düzgün müəyyənləşdirmək, ölkədə gedən quruculuq igifdfişlərini dərindən təhlil etməklə, müasir dünyada Azərbaycanın özünəməxsusluğunu təmin edə biləcək səviyyədə tədqiqatlar və araşdırmalar aparmaqla dövrün tələbatlarını ödəməyi bacarmaq lazımdır [4].

Bir sözlə ölkəmizdə iqtisadi inkişafa nail olmaq üçün geniş imkanlar yaranmışdır. Qarşıya qoyulmuş vəzifələri dərk edərək, perspektiv dövrdə daha böyük səy və əxlaqın yeksəldilməsinə və bütövlükdəinkişafın yeni səviyyəyə qaldırılmasına nail olmaq lazımdır. Bu vəzifələrin öhdəsindən gəlmək üçün iqtisadiyyatın bütün sahələrində yeni ideyalar irəli sürməyə qadir şəxslər, kreativ düşüncəli mütəxəssislərə ehtiyac vardır.

Sözsüz ki, yeni münasibətlər şəraitində iqtisadçı alimlərin üzərinə də daha böyük vəzifələr düşür. Onlar cəmiyyətdə və beynəlxalq aləmdə baş verən sosial – iqtisadi proseslərdə düzgün nəticələrin əldə edilməsi istiqamətində işlər görməli, baş verə biləcək böhran və ziddiyyətli halların qarşısının alınması yollarını göstərməyi bacarmalıdırlar. İqtisadçı mütəxəssislər yeniləşən Azərbaycan cəmiyyətinin gələcək dayanıqlı inkişafının əsasları və konseptual problemlərinin işlənib hazırlanmasında mühüm işlər görməlidirlər [5].

**Nəticə**. Onu demək lazımdır ki, indiki və gələcək vəzifələrin prioritetlərinin dəqiq müəyyənləşdirilməsi zamanın tələbidir və bu prioritetləri belə qruplaşdırmaq mümkündür.

- azərbaycanda müstəqillik dövründə keçirilən keşməkeşli islahatlar yolunun mərhələləri, keçmişimizin və gələcəyimizin iqtisadi mahiyyəti, məzmun elementlərinin çalarları dəqiq
- müəyyən edilməli, Azərbaycanın perspektiv özünəməxsus sosial – iqtisadi modeli işlənib hazirlanmalıdır;
- yeni şəraitdə dövlətin iqtisadiyyata müdaxiləsi çərçivəsi, onun hədd – hüdud məsələləru, konkret missiya və vəzifələrinin nədən ibarət olması göstərilməklə dövlətin makroiqtisadi tənzimləmədə rolu aydınlaşdırılmalıdır;
- iqtisadi inkişafın müasir modeli, onun xarakterik xüsusiyyətləri, konseptual və nəzəri– metodoloji qanunauyğunluqları daha qabarıq təqdim edilməli, ölkə və beynəlxalq ictimaiyyətə çatdırılmalıdır;
- iqtisadi araşdırma və tədqiqatlar qlobal inteqrasiya prosesində insan kapitalının inkişafının reallaşması yönümündə, vəzifələri müəyyənləşdirməli və reallaşdırmalıdır;
- ölkə iqtisadiyyatının konkret sahələri üzrə mövcud problemlər müəyyənləşdirilməli və prioritet istiqamətlər işlənməlidir;
- müasir qloballaşma prosesi nəticəsində dünya iqtisadiyyatında baş verən dəyişikliklərin yaratdığı qeyri– müəyyən vəziyyətlər geniş təhlil edilməli və Azərbaycan üçün bu sahədə fəaliyyət proqramı, nəzəri və təcrübi əhəmiyyətli daha konkret proqramlar (planlar) və konsepsiyalar işlənməlidir;
- Respublikada həyata keçirilən irimiqyaslı iqtisadi islahatlar, ölkə iqtisadiyyatının strukturunda baş verən dəyişikliklər, sivil cəmiyyət kontekstindən təhlil edilməli və optimal struktur haqqında daimi tövsiyyələr işlənib hazırlanmalıdır;
- dünya reallıqları şəraitində, qərb standartlarının ölkənin real iqtisadi islahatları ilə uzaqlaşdırılması məsələləri araşdırılmalıdır;
- ölkəmizin müasir iqtisadi inkişaf xüsusiyyətləri Azərbaycanlılıq nöqteyi nəzərindən işlənib hazırlanmalı və beynəlxalq aləmə çatdırılmalıdır;
- ölkəmizdə baş verən iqtisadi hadisə və proseslər informasiya cəmiyyətinə uyğun, biliyə əsaslanan müasir konseptual modellər əsasında aparılmalı, milli inkişaf konsepsiyasının ideoloji əsasları dəqiq müəyyənləşdirmək müasir tələblərə uyğun tətbiq olunmalıdır.

Ölkəmizin iqtisadi inkişaf modelində iqtisadiyyatın yeni dəqiq müəyyənləşdirilməklə, ayrı – ayrı sahələr üzrə formalaşan tələbat sistemi mücvud ehtiyatlarla müqayisə əsasında keyfiyyətli həyat tərzi problemlərini özündə ehtiva etməli və daima diqqətdə saxlanmalıdır. Beləliklə, iqtisadi tədqiqat və islahatlar nəticə etibarı ilə müasir bazar iqtisadiyyatının normal həyat üçün ən vacib rola malik olduğunu göstərməkdir.

**Ədəbiyyat.**
1. Şəkərəliyev A.Ş. "Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivləri" Bakı 2019
2. Həsənov H.K. "Müəssisənin iqtisadiyyatı" Bakı 2013
3. Şahbazov K.A. və b. "Menecment" Bakı 2007
4. Nuriyev Ə.X. "Regional idarəetmənin əsasları" Bakı 2007
5. Xəlilov A.İ., Nəbiyev A.X. "Firma iqtisadiyyatı və sahibkarlıq" Bakı 2014

**References.**
1. Şəkərəliyev A.Ş. "Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivləri" Bakı, 2019
2. Həsənov H.K. "Müəssisənin iqtisadiyyatı" Bakı, 2013
3. Şahbazov K.A. və b. "Menecment" Bakı, 2007
4. Nuriyev Ə.X. "Regional idarəetmənin əsasları" Bakı, 2007
5. Xəlilov A.İ., Nəbiyev A.X. "Firma iqtisadiyyatı və sahibkarlıq" Bakı, 2014

Redaksiyaya daxil olma/Received 23.12.2019
Çapa qəbul olunma/Accepted for publication 23.01.2020